# Mədəniyyətimizin himayədarı

## Prezident İlham Əliyev ölkə mədəniyyətini daim diqqət mərkəzində saxlayır



**"Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır - alimlərimiz, rəssamlarımız şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır. Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar cəmiyyətin aparıcı təbəqələridir, cəmiyyətin elitasıdır". Prezident İlham Əliyevin bu fikirləri onun ölkə mədəniyyətinə, elminə, incəsənətinə, ədəbiyyatına diqqət və qayğısının parlaq təcəssümüdür.**

İsbata ehtiyacı yoxdur ki, Prezident ölkəmizin sosial-iqtisadi inkişafında müsbət dəyişikliklərin təmin olunması, xalqımızın rifahının yüksəldilməsi üçün maksimum səylər göstərir, regionda sülhün və sabitliyin möhkəmlənməsinə çalışır. Onun yüksək peşəkarlığı, çoxillik iş təcrübəsi, vəzifə məsuliyyəti hissi nəzərdə tutduğu məqsədlərə çatmağına imkan verir. Azərbaycan xalqının inkişafına və tərəqqisinə yönəlmiş, ölçülüb-biçilmiş siyasət yürütməsi, düşünülmüş islahatları və müdrik qərarları ilə ölkə həyatına yeni nəfəs gətirir, Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarır. Prezidentin siyasətinin mərkəzində insan amili dayanır. Amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaq istəyi olan ölkə başçısının həyat fəlsəfəsi hər bir azərbaycanlının Prezidenti olmaqdır.



### "NƏSİMİ İLİ"NDƏN BAŞLAYAN İL

Dövlət başçısının həyata keçirdiyi islahatlar sırasında mədəniyyətin inkişaf strategiyası mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən İlham Əliyev mədəniyyətin inkişafına böyük diqqət və qayğı göstərərək bu sahənin inkişafını dövlət siyasətinin əsas prioritetlərindən biri elan edib. Ölkə başçısının hakimiyyəti dövründə gördüyü işlərin böyük hissəsi mədəniyyət sahəsinin inkişafı ilə bağlıdır. Bu gün çox böyük fəxrlə deyə bilərik ki, zəngin Azərbaycan mədəniyyəti dünyada yüksək səviyyədə, layiqincə təbliğ olunur və maraqla qarşılanır.

"Hər bir ölkənin mədəni həyatı onun səviyyəsini göstərir. Azərbaycanın müstəqil ölkə kimi yaşaması üçün mədəniyyət, incəsənət çox böyük əhəmiyyət kəsb edir. İqtisadi cəhətdən nə qədər zəngin olursa-olsun, əgər mədəniyyət, incəsənət inkişaf etmirsə, ölkə uğurla inkişaf edə bilməz" sözləri ilə mədəniyyətə göstərdiyi diqqət və qayğının təcəssümüdür.

Heç şübhəsiz, mədəniyyətimizin sistemli inkişafı, dünya səviyyəsində tanınması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin respublikaya rəhbərlik etdiyi ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın bir çox sahələrdə gələcək inkişafının möhkəm əsasları yaradılıb, o cümlədən mədəniyyətimiz özünün intibah dövrünü yaşayıb. Ölkənin paytaxtından tutmuş ən ucqar rayonlaradək kinoteatr, klub, mədəniyyət evi, kitabxana, muzeylərin inşa edilməsi, kino, musiqi, teatr, rəssamlıq, memarlıq, heykəltəraşlıq və digər sahələrdə əldə edilən saysız-hesabsız nailiyyətlər həmin dövrdə mədəniyyətimizin inkişafı ilə bağlı görülən işlərə layiqli nümunədir.

Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində isə ölkəmiz dünyada mədəniyyətlərarası, sivilizasiyalararası dialoq mərkəzinə çevrilib. Belə ki, BMT, İslam Əməkdaşlıq Təşkilatı, UNESCO, Avropa Şurası, Avropa İttifaqı, ISESCO və başqa nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələrinin mühüm bir müstəvisini mədəniyyət təşkil edir.

Elə təkcə 2019-cu ilin timsalında nəzər salsaq, Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq ölkəmizdə "Nəsimi İli"nin elan edilməsi ölkə başçısının mədəniyyətə, ədəbiyyata və incəsənətə böyük diqqətinin göstəricisidir. Görkəmli şairin yubileyi çərçivəsində tədbirlər nəinki ölkəmizdə, beynəlxalq miqyasda da geniş şəkildə qeyd olundu.

Kino, teatr, musiqi təbliği sənət, tarixi abidələrin qorunması və bərpası ilə bağlı qəbul olunan dövlət proqramları və ölkə başçısının bu mədəniyyət sahələrinin inkişafı ilə bağlı sərəncamları ölkəmizdə mədəniyyətə, mənəvi dəyərlərin qorunub saxlanılmasına böyük qayğı olduğunu bir daha təsdiq edir. Bu sərəncamlarda mədəniyyətimizin bütün sahələrinin inkişafına dövlət tərəfindən böyük dəstək verildiyi bir daha görünür.

Mədəniyyətin tərəqqisinə dövlətimizin himayəsi son illər həyata keçirilən genişmiqyaslı layihələrdə öz əksini tapıb.

Ulu öndərin sənət adamlarına göstərdiyi diqqəti prezident İlham Əliyev də eyni həssaslıqla davam etdirir.

Sənət adamları orden və medallarla təltif olunur, fəxri adlara, Prezident təqaüdünə layiq görülür, onların sosial vəziyyətinin yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir.

### MƏDƏNİYYƏT SAHƏSİNDƏ İSLAHATLAR

Ölkə başçısının görkəmli mədəniyyət xadimləri ilə həm fərdi qaydada, həm də müxtəlif tədbirlərdə, mərasimlərdə, mədəniyyət ocaqlarının açılışlarında görüşləri də bu sahəyə diqqətin təsdiqidir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu il martın 1-də mədəniyyət xadimləri ilə görüşü bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də islahatların yeni konturlarını yaratmaq baxımından əhəmiyyətlidir. Mədəniyyətimizin müxtəlif sahələrində çalışan sənət adamları - aktyorlar, rejissorlar, musiqi xadimləri, arxitektorlar, yaradıcılıq ittifaqlarının rəhbərlərinin iştirak etdiyi görüşdə qaldırılan məsələlər bu sahənin inkişafına, yeni əsərlərin yaradılmasına, yaradıcı insanların ictimai həyatda, sənət aləmində fəallığının artmasına stimul yaratmaq baxımından önəmlidir: "Mən Prezident kimi çalışırdım ki, həmişə bu sahəyə öz diqqətimi göstərim. Çünki ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. İslahatların yeni mərhələsinin anonsu keçən il prezident seçkilərindən sonra verilib. Ciddi islahatların hazırlanması üçün keçən ilin ikinci yarısında çox fəal iş aparılırdı və bu ilin əvvəlindən genişmiqyaslı islahatlara start verildi. Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac var. Hətta inkişaf etmiş ölkələrdə daim islahatlar aparılır. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır". Prezidentin səsləndirdiyi bu fikirlər həqiqətən il boyu gerçək həllini tapdı - milli-mənəvi dəyərlərimizin inkişafı diqqət mərkəzində saxlanıldı.

Dövlət başçımızın mədəniyyətimizə göstərdiyi qayğının bir nümunəsi də görkəmli sənət adamlarının yubileylərinin keçirilməsidir. Belə ki, 2019-cu ildə Məhəmməd Hadinin, Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının, İsmayıl Şıxlının və b. yubileylərinin qeyd edilməsi ilə bağlı ölkə başçısının sərəncamları var.

2020-ci ilin fevral ayında Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, xalq artisti Əlibaba Məmmədovun anadan olmasının 90 illiyi ilə bağlı ölkə başçısının sərəncamı da bu diqqətin davamıdır.

### KİNODAN TEATRADƏK

Ölkə başçısı 2019-cu ildə dövlət sifarişi ilə film istehsalını və gənc kinematoqrafçıların yaradıcılığının dəstəklənməsi ilə bağlı layihələrin həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Mədəniyyət Nazirliyinə 5 milyon manat ayırması bu sahənin adamlarının böyük sevincinə səbəb oldu. Eləcə teatr sənəti də yaddan çıxmadı.

"Azərbaycan teatr sənəti ölkəmizin ictimai-mədəni həyatında daim fəal rol oynamışdır. Xalqımız milli ədəbiyyatın qiymətli nümunələri ilə yanaşı, dünya dramaturgiyasının inciləri ilə məhz Azərbaycan teatrının dolğun repertuarı sayəsində yaxından tanış olmaq imkanı əldə etmişdir. Cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanması və estetik zövqün formalaşdırılmasında teatrın əvəzsiz xidmətləri vardır"- deyən Prezident həmçinin Azərbaycan teatr xadimlərinin müraciətinə həssaslıqla yanaşdı. Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Mədəniyyət Nazirliyinə 1,8 milyon (bir milyon səkkiz yüz min) manat, o cümlədən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının hər birinə 200,0 (iki yüz) min manat, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrının hər birinə 100,0 (yüz) min manat ayrılması ilə bağlı sərəncam imzaladı.

Prezidentin "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" 2019-cu il 22 oktyabr tarixli Sərəncamı isə mədəni irsə diqqətinin göstəricisidir. Sərəncama əsasən, "Çıraqqala-Şabran", "Qədim Şəmkir şəhəri", o cümlədən "Orta Əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Sərəncamda Azərbaycanın qədim və orta əsrlər tarixinin Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynayaraq, yüzillər boyu bəşər sivilizasiyasının inkişafına dəyərli töhfələr vermiş İpək Yolu ilə sıx şəkildə əlaqəli olduğu qeyd edilir. Qədim şəhər yerləri, karvansaraylar, körpülər, qoruyucu qalaların qalıqları və memarlıq abidələri ilə zəngin Azərbaycan ərazisi bu gün də İpək Yolunun parlaq izlərini daşıyır.

Ölkə başçısının bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də islahatları uğurla davam edir. Mədəniyyətin inkişafına yönəli sərəncam və fərmanları bir yazı çərçivəsinə sığışdırmaq isə təbii ki, mümkünsüzdür. Əminik ki, Prezidentin qazandığı ümumxalq dəstəyi və etimadı, respublika vətəndaşlarının həyatını daha da firavanlaşdırmaq səyləri ali dövləti fəaliyyətində bundan sonra da yeni uğurların qazanılmasına imkan yaradacaq.

**Təranə Məhərrəmova**